| | |
|---|---|
| **AKTIN NÖVÜ** | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANLARI |
| **QƏBUL EDİLDİYİ TARİX** | 22.05.1998 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 706 |
| **ADI** | Azərbaycan Respublikasının fəxri adları haqqında |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-05-1998, Nəşr nömrəsi: 05, Maddə nömrəsi: 312) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 010.000.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 01.07.2011 |

## Azərbaycan Respublikasının fəxri adları haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Tariximizin sovet dövründə ümumittifaq miqyasında olan fəxri adlarla yanaşı respublikamızda müxtəlif sahələrə aid fəxri adlar da olmuşdur. Belə ki, 1928-78-ci illərdə Azərbaycanda "Azərbaycan SSR xalq artisti", "Azərbaycan SSR xalq yazıçısı", "Azərbaycan SSR əməkdar elm xadimi", "Azərbaycan SSR əməkdar müəllimi", "Azərbaycan SSR əməkdar səhiyyə işçisi" və başqa fəxri adlar təsis edilmişdir. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 26 avqust 1983-cü il tarixli Fərmanı ilə isə 45 fəxri ad müəyyən edilmişdir.

Azərbaycanda mədəniyyətin, ədəbiyyatın, elm və təhsilin, iqtisadiyyatın inkişafında böyük xidmətləri olan bir sıra şəxslər həmin illərdə müxtəlif fəxri adlara layiq görülmüşlər.

Azərbaycan öz müstəqilliyini bəyan etdikdən sonra fəxri adlara dair heç bir xüsusi hüquqi sənəd qəbul olunmamışdır. Buna baxmayaraq 1991-93-cü illərdə müstəqil Azərbaycan Respublikasında sovet dövrü fəxri adlarının verilməsi davam etdirilmişdir. Yalnız 1993-cü il iyunun 24-dən sonra hüquqi əsası olmayan bu praktikaya son qoyulmuş və heç bir fəxri ad verilməmişdir.

Müstəqil respublikamızda mədəniyyət, ədəbiyyat, elm, təhsil və səhiyyə sahələrinin inkişafında, ümumiyyətlə ölkənin tərəqqisi yolunda böyük nailiyyətlər qazanmış şəxslərin əməyinin qiymətləndirilməsi məqsədi ilə, müxtəlif təşkilatların, ayrı-ayrı vətəndaşların bu məsələ ilə əlaqədar çoxsaylı müraciətlərini nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Mədəniyyət, ədəbiyyat, elm, təhsil, səhiyyə, bədən tərbiyəsi və idman, jurnalistika, mühəndislik, habelə dövlət qulluğu, hüquq, kənd təsərrüfatı və mülki aviasiya sahələrində Azərbaycan Respublikasının aşağıdakı fəxri adları təsis edilsin:[1]

xalq yazıçısı;

xalq şairi;

xalq artisti;

xalq rəssamı;

əməkdar elm xadimi;

əməkdar incəsənət xadimi;

əməkdar artist;

əməkdar rəssam;

əməkdar mədəniyyət işçisi;

əməkdar müəllim;

əməkdar həkim;

əməkdar memar;[2]

əməkdar dövlət qulluqçusu[3]

əməkdar bədən tərbiyəsi və idman xadimi;[4]

əməkdar jurnalist;[5]

əməkdar mühəndis.[6]

əməkdar hüquqşünas[7]

əməkdar kənd təsərrüfatı işçisi;[8]

əməkdar pilot;[9]

əməkdar tibb işçisi.[10]

2. Bu Fərman imzalandığı günə qədər verilmiş fəxri adlar onları almış şəxslər üçün öz qüvvəsini saxlayır və müstəqil Azərbaycan Respublikasının fəxri adları hesab olunur.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, "Azərbaycan Respublikasının fəxri adları haqqında Əsasnamə" layihəsini hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin və bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 22 may 1998-ci il
706

-
-
-

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


**1.** 19 aprel 2000-ci il tarixli 322 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, 4, maddə 268**)

**2.** 4 mart 2005-ci il tarixli 207 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 3, maddə 165**)

**3.** 14 iyul 2005-ci il tarixli 259 nömrəli Fərman ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 7, maddə 595** )

**4.** 21 iyul 2005-ci il tarixli 267 nömrəli Fərman ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 7, maddə 603** )

**5.** 22 noyabr 2005-ci il tarixli 318 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərman (" **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 11, maddə 1013**)

**6.** 9 oktyabr 2008-ci il tarixli 831 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 10 oktyabr 2008-ci il, 225, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 10, maddə 890)**

**7.** 3 may 2010-cu il tarixli **259** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 4 may 2010-cu il, 95, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 5, maddə 388)**

**8.** 6 iyul 2012-ci il tarixli **674** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 7 iyul 2012-ci il, 148)**

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 4 mart 2005-ci il tarixli 207 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 3, maddə 165** ) ilə 1-ci bənddə "**təhsil və səhiyyə**" sözləri **"təhsil, səhiyyə, bədən tərbiyəsi və idman** " sözləri ilə əvəz edilmişdir.

14 iyul 2005-ci il tarixli **259** nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 7, maddə 595** ) ilə 1-ci bənddə **"səhiyyə, bədən tərbiyəsi və idman** " sözləri **"səhiyyə, bədən tərbiyəsi və idman, jurnalistika** " sözləri ilə əvəz edilmişdir.

21 iyul 2005-ci il tarixli 267 nömrəli Fərman ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 7, maddə 603** ) ilə 1-ci bənddə **"jurnalistika"** sözü "**jurnalistika və mühəndislik"** sözləri ilə əvəz edilmişdir.

22 noyabr 2005-ci il tarixli 318 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərman (" **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 11, maddə 1013**) ilə 1-ci bəndin birinci abzasında "**jurnalistika və mühəndislik**" sözləri **"jurnalistika, mühəndislik, habelə dövlət qulluğu və hüquq"** sözləri ilə əvəz edilmişdir.

9 oktyabr 2008-ci il tarixli 831 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 10 oktyabr 2008-ci il, 225, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 10, maddə 890)** ilə birinci abzasda "**və hüquq**" sözləri "**, hüquq və kənd təsərrüfatı**" sözləri ilə əvəz edilmişdir.

3 may 2010-cu il tarixli **259** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 4 may 2010-cu il, 95, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 5, maddə 388)** ilə birinci abzasda "**və kənd təsərrüfatı**" sözləri "**, kənd təsərrüfatı və mülki aviasiya**" sözləri ilə əvəz edilmişdir.

[2] 19 aprel 2000-ci il tarixli 322 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, 4, maddə 268** ) ilə 1-ci bənddə "**əməkdar həkim"** sözlərindən sonra "**əməkdar mema**r" sözləri əlavə edilmişdir.

[3] 22 noyabr 2005-ci il tarixli 318 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərman (" **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 11, maddə 1013**) ilə 1-ci bəndin on üçüncü abzasında **"əməkdar memar"** sözlərindən sonra **"əməkdar dövlət qulluqçusu**" sözləri əlavə edilmişdir.

[4] 4 mart 2005-ci il tarixli 207 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 3, maddə 165** ) ilə 1-ci bənddə **"əməkdar memar**" sözlərindən sonra "**əməkdar bədən tərbiyəsi və idman xadimi** " sözləri əlavə edilmişdir.

[5] 14 iyul 2005-ci il tarixli 259 nömrəli Fərman ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 7, maddə 595** ) 1-ci bənddə **"əməkdar bədən tərbiyəsi və idman xadimi** " sözlərindən sonra "**əməkdar jurnalist**" sözləri əlavə edilmişdir.

[6] 21 iyul 2005-ci il tarixli 267 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 7, maddə 603** ) ilə 1-ci bənddə "**əməkdar jurnalist"** sözlərindən sonra "**əməkdar mühəndis**" sözləri əlavə edilmişdir.

[7] 22 noyabr 2005-ci il tarixli 318 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərman (" **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 11, maddə 1013**) ilə 1-ci bəndin on yeddinci abzasında **"əməkdar mühəndis"** sözlərindən sonra "**əməkdar hüquqşünas**" sözləri əlavə edilmişdir.

[8] 9 oktyabr 2008-ci il tarixli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 10 oktyabr 2008-ci il, 225)** ilə yeni məzmunda on doqquzuncu abzas əlavə edilmişdir.

[9] 3 may 2010-cu il tarixli **259** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 4 may 2010-cu il, 95, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 5, maddə 388)** ilə on doqquzuncu abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və bəndə iyirminci abzas əlavə edilmişdir.

[10] 6 iyul 2012-ci il tarixli **674** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 7 iyul 2012-ci il, 148)** ilə 1-ci hissəsinin iyirminci abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və hissəyə iyirmi birinci abzas əlavə edilmişdir.